*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 3, s.29-32*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 3, p.29-32*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 3, с.29-32*

**UOT: 159.923.2:37.016.1**
https://doi.org/10.30546/670832.2025.02.1018

# Ailədə milli tərbiyənin formalaşmasının etno-psixoloji əsasları

**Müəllif(lər):**

**Zeynəb Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
**E-poçt:** ZeynebMemmedova@nmi.edu.az

**Açar sözlər:** milli tərbiyə, etnopsixologiya, ailə dəyərləri, milli kimlik, sosial adaptasiya, mədəni irs

**Annotasiya.** Ailənin psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onun etno-psixoloji aspektlərinin təhlili, gender rollarının formalaşması və ailədə tərbiyənin əhəmiyyəti mövcud tədqiqatın ən aktual məsələlərindən biridir. Ailə tərbiyəsi prosesində ortaya çıxan çətinliklərin təhlili isə tərbiyə metodlarının təkmilləşdirilməsi üçün yeni perspektivlər aça bilər.

Tədqiqatın məqsədi, ailədə gender rollarının, tərbiyə prosesinin və etnik psixoloji hisslərin formalaşmasında oynadığı rolun öyrənilməsidir. Bu tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın nəticələri ailə tərbiyəsi ilə məşğul olan mütəxəssislər, pedaqoqlar və psixoloqlar üçün praktiki əhəmiyyət daşıyır. Ailə tərbiyəsi sahəsində müasir yanaşmaların inkişaf etdirilməsi və gender rollarının tərbiyədə düzgün tətbiqi üçün faydalı olacaqdır. Tədqiqatın araşdırılmasında araşdırma metodları kimi sorğular, psixoloji testlər, fərdi və qrup müsahibələri, müşahidə və məqsədli psixoloji eksperimentlər istifadə oluna bilər. Aparılan tədqiqat təsdiqlədi ki, ailə tərbiyəsi etnik, psixoloji və sosial faktorlarla çoxsahəli bir prosesdir. Ailədə gender rollarının və etnik psixoloji hisslərin formalaşdırılması, ailənin harmoniyasını təmin edir və gələcək nəsillərin sosial və emosional sağlamlığını qoruyur. Müasir ailə tiplərində tərbiyə prosesinin yenidən qurulması və ənənəvi dəyərlərlə müasir yanaşmaların balanslaşdırılması, ailədaxili münasibətlərin möhkəmləndirilməsində və cəmiyyətin sosial rifahının qorunmasında mühüm rol oynayır.

**Author(s):**

**Zeynab Mammadova**
Nakhchivan Teachers Institute
Master student
**E-mail:** ZeynebMemmedova@nmi.edu.az

**Key words:** national upbringing, ethnopsychology, family values, national identity, social adaptation, cultural heritage

## Ethno-psychological foundations of the formation of national education in the family

**Abstract**. Psychological characteristics of the family, the analysis of its ethno-psychological aspects, the formation of gender roles and the importance of family upbringing are among the most actual issues of the presented research. Analyzing the challenges arising in the family upbringing process can open new perspectives for improving educational methods.

The objective of this study is to study the role of gender roles, the educational process and ethno-psychological feelings in the formation of family upbringing. The theoretical and practical significance of this research, results of research are of great importance for specialists, educators and psychologists involved in family education. İt contributes to the development of modern approaches in family upbringing and to the proper implementation of gender roles in the upbringing process. Research surveys, psychological tests, individual and group observations and targeted psychological experiments can be used. The study confirmed that, family upbringing is a multifaceted process influenced by ethnic, psychological and social factors. The formation of gender roles and ethno-psychological feelings in the family ensures family harmony and preserves the social and emotional well-being of future generations. Formation of the educational process in modern family types and balancing traditional values with contemporary approaches play an important role in strengthening inner-family relationships and maintaining the social welfare of society.

**Автор(ы):**

**Зейнаб Маммадова**
Нахчыванский институт учителей
Магистрант
**Э-почта:** ZeynebMemmedova@nmi.edu.az

**Ключевые слова:** национальное воспитание, этнопсихология, семейные ценности, национальная идентичность, социальная адаптация, культурное наследие

## Этнопсихологические основы формирования национального воспитания в семье

**Аннотация.** Изучение психологических особенностей семьи, анализ ее этнопсихологических аспектов, формирование гендерных ролей и значение семейного воспитания относятся к числу наиболее актуальных проблем настоящего исследования. Анализ трудностей, возникающих в процессе семейного воспитания, может открыть новые перспективы для совершенствования воспитательных методов.

Цель исследования заключается в изучении роли гендерных ролей, воспитательного процесса и этнопсихологических чувств в семье. Теоретическая и практическая значимость исследования состоит в том, что его результаты имеют прикладное значение для специалистов, педагогов и психологов, занимающихся семейным воспитанием. Они могут быть использованы для развития современных подходов в сфере семейного воспитания и корректного применения гендерных ролей в воспитательном процессе. В исследовании в качестве методов могут использоваться опросы, психологические тесты, индивидуальные и групповые интервью, наблюдение и целенаправленные психологические эксперименты. Проведенное исследование подтвердило, что семейное воспитание является многоаспектным процессом, обусловленным этническими, психологическими и социальными факторами. Формирование гендерных ролей и этнопсихологических чувств в семье обеспечивает ее гармонию и способствует сохранению социальной и эмоциональной устойчивости будущих поколений. В современных типах семьи переосмысление воспитательного процесса и балансирование традиционных ценностей с современными подходами играют важную роль в укреплении внутрисемейных отношений и сохранении социального благополучия общества.

**Giriş.** Milli tərbiyə ailədə formalaşan və insanın şəxsiyyət kimi yetişməsində mühüm rol oynayan ən aktual məsələlərindən biridir. Etnopsixologiya insanın psixoloji inkişafına milli-mədəni xüsusiyyətlərin təsirini öyrənən bir elm sahəsidir. Bu yanaşma milli tərbiyənin psixoloji əsaslarını araşdıraraq, ailənin, cəmiyyətin və mədəni mühitin şəxsiyyətin formalaşmasına necə təsir etdiyini izah edir. Etnopsixoloji yanaşmaya əsasən, hər bir xalqın özünəməxsus psixoloji xüsusiyyətləri var və bu xüsusiyyətlər tərbiyə prosesində önəmli yer tutur. Uşağın milli kimliyinin inkişafı üçün ailədə düzgün tərbiyə üsullarının tətbiq olunması vacibdir.

**Tədqiqatın məqsədi**, ailə tərbiyəsində gender rollarının təsirini araşdırmaq, müasir ailə tiplərində psixoloji və etnik faktorların təsirlərini təhlil etmək, ailə tərbiyəsində yol verilən nöqsanları aşkar etmək və onların qarşısını almaq üçün təkliflər irəli sürməkdir [1].

Ailədə milli tərbiyənin formalaşması prosesi, yalnız valideynlərin verdiyi təlim-tərbiyə ilə məhdudlaşmır, eyni zamanda, bu proses geniş mənada psixoloji və etno-mədəni aspektləri də əhatə edir. Milli tərbiyə uşaqların sosial-mədəni davranışlarını formalaşdırmaqla yanaşı, onların psixoloji inkişafına da birbaşa təsir edir. Burada milli mənsubiyyətin dərk edilməsi, milli dəyərlərin qavranılması və mənimsənilməsi, ənənələrin qəbul olunması kimi elementlər uşaqların psixoloji şəxsiyyətini formalaşdıran əsas amillərdən biridir.

Ailədə milli tərbiyənin ötürülməsi prosesi valideynlərin davranışları, ünsiyyət tərzi, milli bayramların qeyd edilməsi, ənənəvi mərasimlər və uşaqlara milli qəhrəmanların təbliği kimi müxtəlif yollarla həyata keçirilir. Valideynlər uşaqlara milli kimliyin əhəmiyyətini izah edir, onların milli dəyərləri mənimsəməsinə və yaşatmasına şərait yaradır [2].

Azərbaycanda milli tərbiyə uzun əsrlər boyu ailədə qorunub saxlanmış və nəsildən-nəslə ötürülmüşdür. Ailə tərbiyəsi zamanı milli-mənəvi dəyərlərə əsaslanan sosial davranış normaları, ailə münasibətləri və vətəndaşlıq şüuru formalaşdırılır. Tarixi və mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün ailədə milli tərbiyənin düzgün aparılması əsas amillərdən biridir. Bu kontekstdə etnopsixoloji əsaslar milli tərbiyənin daha dərin və elmi şəkildə öyrənilməsinə şərait yaradır.

Bu araşdırmada ailədə milli tərbiyənin formalaşmasının etnopsixoloji əsasları, bu prosesin fərdin psixoloji inkişafına və cəmiyyətə inteqrasiyasına təsiri təhlil ediləcəkdir. Məqsəd milli tərbiyənin psixoloji və sosial aspektlərini araşdırmaq, ailənin bu prosesdəki rolunu və əhəmiyyətini dəyərləndirməkdir. Milli dəyərlərin qorunması və onların gələcək nəsillərə ötürülməsi baxımından ailənin tərbiyəvi funksiyasının gücləndirilməsi mühüm məsələlərdən biridir [3].

Uşaqların psixoloji inkişafında ailənin rolu onların mənsub olduqları xalqın mədəniyyətini və mənəvi dəyərlərini mənimsəmə səviyyəsindən də asılıdır. Əgər ailədə milli adət-ənənələr yaşadılırsa, uşaq bu mühitdə böyüyərək öz xalqına məxsus xüsusiyyətləri daha dərindən dərk edir. Bu prosesdə valideynlərin, xüsusilə də ananın rolu böyükdür. Ana dili, folklor, milli musiqi və ədəbiyyat kimi elementlər uşağın milli kimliyinin formalaşmasında mühüm rol oynayır [4]. Ailədə milli tərbiyənin düzgün qurulması gələcək nəsillərin sosial adaptasiyasına və vətəndaşlıq şüurunun formalaşmasına da müsbət təsir edir. Ailədə vətənpərvərlik və milli dəyərlər üzərində qurulan tərbiyə uşaqların dövlətinə və xalqına bağlı, məsuliyyətli vətəndaşlar kimi yetişməsini təmin edir. Qloballaşma və müasir texnologiyaların sürətli inkişafı ailədə milli tərbiyəyə təsir edən mühüm faktorlardandır. İnternet və sosial media vasitəsilə qlobal dəyərlər milli dəyərləri üstələyə bilir. Bu, xüsusilə gənc nəslin dünya görüşünə və milli kimliklərinin formalaşmasına təsir edir.

**Material və metodlar.** Ailə cəmiyyətin ən kiçik, lakin ən təsirli sosial institutlarından biridir. Uşağın dünyaya göz açdığı və ilkin tərbiyəsini aldığı mühit məhz ailədir. Milli tərbiyənin formalaşması da məhz bu mühitdə başlayır və zamanla fərdin dünyagörüşünə, sosial davranışlarına və mənəvi dəyərlərinə təsir edir. Ailədə milli tərbiyənin əsasları həm tarixi irs, həm mədəni ənənələr, həm də psixoloji təsirlər çərçivəsində formalaşır. Bu tərbiyə uşaqlara milli kimlik, vətənpərvərlik, milli dəyərlərə hörmət və mədəni irsin qorunması kimi keyfiyyətləri aşılayır.

Etnopsixologiya fərdin psixoloji inkişafında milli-mədəni amillərin rolunu öyrənən bir sahədir. Milli kimlik insanın özünü müəyyən

bir etnik qrupa aid hiss etməsi və həmin qrupun dəyərlərini mənimsəməsi ilə bağlıdır. Ailədə bu kimliyin formalaşması üçün əsas amillərdən biri uşağın valideynlər və digər ailə üzvləri ilə qurduğu emosional və sosial münasibətlərdir. Əgər ailədə milli dəyərlər üstün tutulursa, uşaq da bu dəyərləri erkən yaşlarından qəbul edir və öz şəxsiyyətinə inteqrasiya edir.

Uşaqların psixoloji inkişafında ailənin rolu onların mənsub olduqları xalqın mədəniyyətini və mənəvi dəyərlərini mənimsəmə səviyyəsindən də asılıdır. Əgər ailədə milli adət-ənənələr yaşadılırsa, uşaq bu mühitdə böyüyərək öz xalqına məxsus xüsusiyyətləri daha dərindən dərk edir. Bu prosesdə valideynlərin, xüsusilə də ananın rolu böyükdür. Ana dili, folklor, milli musiqi və ədəbiyyat kimi elementlər uşağın milli kimliyinin formalaşmasında mühüm rol oynayır.

Ailədə milli tərbiyənin əsas mexanizmlərindən biri milli dəyərlərin ötürülməsidir. Hər bir xalqın özünəməxsus adət-ənənələri, ailə münasibətləri və sosial davranış qaydaları var. Bu dəyərlər nəsildən-nəslə ötürülərək milli kimliyin qorunmasına xidmət edir. Məsələn, Azərbaycanda böyüklərə hörmət, qonaqpərvərlik, ailə bağlarının möhkəmliyi və kollektivçilik kimi dəyərlər ailə tərbiyəsinin əsasını təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Müxtəlif tarixi ədəbiyyatlara istinadən edilmiş məlumatlar, məqalənin praktiki əhəmiyyətini daha da artırır. Eyni zamanda, ümumtəhsil müəssisələrində, ali təhsil müəssisələrində və digər təlim-tərbiyə müəssisələrində verilmiş məlumatlardan faydalana bilərlər, Tədqiqatın nəticələri ailə tərbiyəsi ilə məşğul olan mütəxəssislər, pedaqoqlar və psixoloqlar üçün praktiki əhəmiyyət daşıyır. Ailə tərbiyəsi sahəsində müasir yanaşmaların inkişaf etdirilməsi və gender rollarının tərbiyədə düzgün tətbiqi üçün faydalı olacaqdır. Nəticələr tərbiyə prosesində ailələrin qarşılaşdığı problemlərin həlli üçün əsaslı təkliflər irəli sürə bilər. Ailə psixologiyası və milli tərbiyə mövzusunda geniş şəkildə aparılmış tədqiqatlar mövcud olsa da, bu sahənin bəzi aspektləri, xüsusilə də ailənin etno-psixoloji xüsusiyyətlərinin milli tərbiyədəki rolu tam şəkildə araşdırılmamışdır. Bu mövzu ilə bağlı mövcud elmi işlər əsasən ümumi psixoloji və pedaqoji yanaşmalar üzərində qurulmuşdur, lakin ailə strukturunun milli dəyərlərin ötürülməsindəki konkret təsir mexanizmləri və etno-psixoloji faktorların uşaqların şəxsiyyətinə və kimliklərinə necə təsir etdiyi barədə ətraflı tədqiqatlar azlıq təşkil edir.

**Nəticə və müzakirə**. Ailədə milli tərbiyənin formalaşması fərdin mənəvi inkişafında, milli kimliyinin möhkəmlənməsində və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Hər bir xalqın tarixi, mədəniyyəti və dəyərləri onun milli tərbiyə sistemini formalaşdırır və bu sistemin əsası ailədə qoyulur. Uşaqlar ilk sosial təcrübələrini ailədə qazandıqları üçün onların milli şüurunun formalaşmasında valideynlərin rolu əvəzsizdir. Milli dəyərlərin ötürülməsi, vətənpərvərlik hissinin aşılanması və etnopsixoloji faktorların nəzərə alınması uşaqların öz mədəni kimliklərini dərk etmələrinə və milli-mənəvi dəyərlərə sahib çıxmalarına kömək edir.

Tədqiqat göstərir ki, ailədə milli tərbiyənin güclü olduğu cəmiyyətlərdə sosial birliyin qorunması, mədəni irsin davamlılığı və milli şüurun inkişafı daha stabil olur. Valideynlər övladlarına milli dəyərləri təkcə öyrətməməli, həm də onları gündəlik həyatlarında yaşatmalıdırlar. Əgər ailədə milli adət-ənənələr qorunub saxlanılırsa, uşaqlar bu dəyərləri təbii şəkildə qəbul edir və gələcəkdə öz övladlarına ötürürlər.

**Yekun nəticə.** Etnopsixoloji yanaşma göstərir ki, hər bir xalqın özünəməxsus psixoloji xüsusiyyətləri var və bunlar ailədə uşaqlara ötürülərək onların milli identifikasiyasını gücləndirir. Ana dilinin qorunması, milli musiqi və folklorun təbliği, adət-ənənələrin yaşadılması uşaqların milli ruhda böyüməsinə şərait yaradır. Ailədə milli dəyərlərə əsaslanan tərbiyə fərdlərin sosial mühitə uyğunlaşmasına da müsbət təsir edir.

Bununla belə, müasir dövrdə qloballaşma və texnoloji inkişaf ailədə milli tərbiyənin qarşısında bir sıra çətinliklər yaradır. Xarici mədəni təsirlərin güclənməsi, sosial medianın təsiri və urbanizasiya prosesləri nəticəsində bəzi ailələrdə milli dəyərlərin qorunması zəifləyir. Bu problemlərin həlli üçün ailələr və təhsil müəssisələri milli tərbiyənin vacibliyini dərk etməli və uşaqlara öz mədəniyyətlərini tanıtmaq üçün müxtəlif vasitələrdən istifadə etməlidirlər.

**Ədəbiyyat**

1. Əliyev, A. Ailədə milli tərbiyə və etnopsixo-

loji yanaşmalar / A.Əliyev. – Bakı: Təhsil Nəşriyyatı, – 2020. – 202 s.
2. Quliyeva, S. Milli kimlik və tərbiyə: Ailədə milli dəyərlərin ötürülməsi. / S.Quliyeva. – Bakı: Elm və Təhsil, – 2018. – 345 s.
3. Hüseynova, R. Etnopsixologiya və milli tərbiyənin formalaşması / R.Hüseynova. – Bakı: Maarif Nəşriyyatı, – 2019. – 225 s.
4. Block, C.J. The Representation of Men in HEED Careers. Psychology of Men & Masculinities, – 2020. – 18 p.
5. Clarkson, A., & Zierl, L. An online parenting program grows digital parenting skills and parent–school connection. Journal of Extension, – 2018. 56(5).
6. Cerrato, J., & Cifre, E. Gender Inequality in Household Chores and Work-Family Conflict. Frontiers in Psychology, – 2018. – 144 p.
7. Кучмаева, О.В. Мониторинг воспитательного потенциала семьи / О.В.Кучмаева, Е.А.Марьганова, О.Л.Петрякова. Российское образование и общество, – 2021. –112 с
8. Первичко, Е.И. Влияние семьи на отношение детей к здоровью / Е.И.Первичко, И.М.Шишкова. Психология в России: состояние науки, – 2020. – 116 с.

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 28.04.2025, son daxilolma – 11.07.2025, qəbulolunma – 10.09.2025